**Orucoğlu Z.** Ölməz şəhidlərimiz // Respublika. - 2024. - 5 dekabr. - **№ 268**. - S. 8.

**44 günlük haqq savaşımızda Vətənin qeyrətli övladlarının misilsiz şücaəti, qanı, canı bahasına 30 il düşmənə əsir düşən cənnətməkan Qarabağımız azadlığa qovuşdu.**

Bu çətin, şərəfli zəfər yolunda işğaldan azad edilən torpaqlarımızda müqəddəs bayrağımızı ucaldan minlərlə qəhrəmanlardan biri Lənkəran rayonu, Yuxarı Nüvədi kəndində boya-başa çatan şəhid baş leytenant Vüsal Kazımov da olub. Qazanılan parlaq qələbəmizdə xüsusi yeri olan Vətən sevdalısının dördüncü anım günü mərasimində üzlərdə qürurdan yaranan ilahi bir təbəssüm bir daha göstərirdi ki, Vətənin mətn, xilaskar ər oğlu Vüsala xalqın ona bəslədiyi sevgi, məhəbbət qərinələr boyunca tükənməyəcək.

Lənkəran rayonunun rəsmiləri, Astara Pedaqoji Kollecinin müəllim heyəti, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri, müharibə veteranları, şəhid ailəsinin üzvləri tarix yazan qəhrəmanın doğma kəndi Yuxarı Nüvədidə uyuduğu müqəddəs torpağı ziyarət etdilər, ehtiram əlaməti olaraq məzarına təzə güllər düzdülər. Bildirildi ki, igidlik, mərdlik, dürüstlük sanki Vüsalın boynuna biçilmişdi. Vətənini canından artıq sevirdi. Müharibə başlanan kimi özünü od-alovun içinə atıb, ilk gündən düşmənə qan uddurub. Qızğın mübarizə meydanında baş leytenantın fədakarlığı, mərdliyi döyüş yoldaşlarına nümunə olub. Vətən, torpaq sevgisi Vüsalı şəhidlik zirvəsinə ucaldıb və şanlı qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrilib.

Vətənin dar günündə dadına çatan, qanı bahasına onu alınmaz qalaya döndərən baş leytenant Vüsal Kamran oğlu Kazımov 17 dekabr 1990-cı ildə ziyalı ailəsində dünyaya göz açıb. İki ali təhsil alan Vüsal bir müddət Lənkəran Şəhər Uşaq Poliklinikasında psixi sağlamlıq bölməsində müalicəvi bədən-tərbiyəsi üzrə təlimatçı, həmçinin şəhər Gənclər və İdman İdarəsinin Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifələrində çalışıb. İkinci Qarabağ müharibəsinə könüllü yollanıb, döyüş komandiri olaraq ölüm-dirim savaşında iştirak edib.

Mərdliyi, cəsarəti, yurd sevgisi dillərdən düşməyən baş leytenant Vüsal Kazımov Füzuli əməliyyatlarında, Cəbrayıl döyüşlərində, Xocavəndin, Şuşanın azadlığı uğrunda şəxsi rəşadət nümayiş etdirib. 26 oktyabrda Şuşada düşmənə qarşı qeyri-bərabər mübarizədə şəhidik zirvəsinə yüksəlib. Əbədi qəlblərə köç edən Lənkəran

elinin qəhrəman oğlu ölümündən sonra dövlət tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" və digər medallara layiq görülüb. Hazırda Nuray və Aynur adlı qızları atalarının adına layiq böyüyürlər.